# Milli-mənəvi dəyərlərin qorunması əsas missiyamızdır

**Müstəqil inkişaf yolunda uğurla addımlayan ölkəmizin beynəlxalq nüfuzunun artması min illər ərzində formalaşdırılmış milli-mənəvi dəyərlərindən daha səmərəli istifadəni zəruri tələb kimi qarşıya qoyur. Xalqın yaşadığı tarixlə, keçdiyi sivilizasiya ilə vəhdətdə formalaşan milli-mənəvi dəyərlər insanlara gələcəklərini düzgün müəyyənləşdirməkdə, dövləti və dövlətçiliyi möhkəmləndirməkdə əsaslı şəkildə kömək edir.**

Ümummilli lider Heydər Əliyev bütün fəaliyyəti boyu milli dəyərlərimizi yüksək qiymətləndirib: "Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri birləşdirib müasir həyat tərzi keçirmək lazımdır". Bu fikirlər müasir Azərbaycanın inkişafında böyük əhəmiyyətə malik oldu.

Bəli, biz çalışmalıyıq ki, gənclərimizin yaxşı təhsil almaq, xaricdə biliklərə yiyələnmək, müasir dünyanı dərk etmək imkanları olsun. Eyni zamanda milli köklərimiz, tariximiz, adət-ənənələrimiz, həyat tərzimiz haqqında hər zaman düşünməliyik.

Müasir dünyada gedən qloballaşma prosesi bizim dəyərlərimizə müdaxilə etməli deyil. Beləliklə, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasında, milli şüurumuzun formalaşmasında mədəni irsimiz böyük rol oynayır.

Azərbaycan müstəqillik qazandıqdan sonra gənc nəslin tərbiyəsində köklü dəyişikliklər edildi. İlk növbədə təhsil ocaqlarında böyüməkdə olan hər gəncin şəxsiyyət kimi formalaşmasına xidmət edən, milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan yeni tərbiyə sistemi quruldu. Azərbaycan vətəndaşı doğulduğu torpağa, milli adət-ənənələrə bağlıdır, Vətən torpağı uğrunda hər zaman canından keçməyə hazırdır. Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda gedən döyüşlərdə biz bütün bunların canlı şahidi olduq.

Gənc nəslin milli mənlik ruhunda tərbiyəsi ailədən başlayır. Valideynlərin vətəndaşlıq nümunəsi, təlim-tərbiyə müəssisələrində aparılan işlər burada mühüm rol oynayır.

İndiki qlobal şəraitdə gənclərə soykökümüzə, milli adət-ənənələrimizə, xalqımızın əxlaqına, mənəvi normalarına, vətənə məhəbbətinə, düşmənə nifrətinə, dosta, yoldaşa, qohuma, qadın ismətinə, kişilik ləyaqətinə, ədəb-ərkan qaydalarına hörmətlə yanaşmaq hissi aşılamalıyıq.

Ana dilimiz birliyimiz, müstəqilliyimiz, tariximiz və s. mövzularda keçirilən tədbirlər, bədii kompazisiyalar da uşaq və gənclərin milli dəyərlərə hörmət ruhunda tərbiyəsinə böyük təsir göstərir.

Müasir dövrdə tərbiyə işi dərin sosial-iqtisadi və siyasi islahatlar zəminində aparılır. Hər bir azərbaycanlı dövlət quruculuğunda, vətəndaş cəmiyyətinin formalaşmasında bu və ya digər formada iştirak edir. Cəmiyyətimizin tələbi yeniyetmə gəncləri bəşəriliyə, azərbaycançılığa və islami dəyərlərə hörmət ruhunda tərbiyə etməkdir.

Milli mənlik şüuruna yiyələnmiş şəxs öz millətini sevməklə yanaşı, başqa millətlərə, onların mədəniyyətinə də hörmətlə yanaşmağı bacarmalıdır. Bu gün Prezident İlham Əliyevi milli-mənəvi dəyərlərin ən qüdrətli mühafizəçisi kimi görürük. Respublikanın birinci xanımı Mehriban Əliyevanın irsimizin qorunması istiqamətində ardıcıl səyləri də xalqımızın milli-mənəvi dəyərlərinə yüksək hörmətin təzahürüdür.

Xalqımızın milli-mənəvi dəyərlərini qorumaq hər birimizin borcudur.

**Elmira HACIYEVA.**
**"Respublika".**

